# ÜZEYİR HACIBƏYLİNİN OPERA VƏ OPERETTA SƏNƏTİNİN İNKİŞAFINDA ROLU

Dahi bəstəkar Üzeyir Hacıbəyli 1908-ci ildə “Leyli və “Məcnun” operası, 1910-cu ildə isə “Ər və arvad” operettası ilə Şərqdə ilk musiqili tamaşaların əsasını qoyur. Üzeyir Hacıbəylinin yaradıcılığı musiqisevərlərin inkişafına geniş zəmin hazırlayır və onun ardınca Zülfüqar bəy Hacıbəyli (“Aşıq Qərib”, 1916), Müslüm Maqomayev (“Şah İsmayıl”, 1919, “Nərgiz” 1935) kimi bəstəkarlar yetişirlər.

Üzeyir Hacıbəyli bir-birinin ardınca “Leyli və Məcnun” (1908), “Şeyx Sənan” (1909), “Şah Abbas və Xurşidbanu” (1912), “Əsli və Kərəm” (1912), “Koroğlu” (1937) kimi opera əsərləri ilə Azərbaycan operasının inkişafında və formalaşmasında mühüm rol oynayır.

Bəstəkar musiqili tamaşaların bir janrı ilə kifayətlənmədən daima axtarışlarını davam edərək ilk dəfə olaraq operetta janrının da əsasını qoyur.  Onun bu janrda ilk böyük uğuru 1910-cu ildə yazdığı və elə həmin ildə də “Nicat” truppasının aktyorları tərəfindən Nikitin qardaşlarının sirkində səhnələşdirilmiş “Ər və arvad” operettasıdır. Opera tamaşalarında olduğu kimi operettada da baş rolda Hüseynqulu Sarabski səhnəyə çıxaraq Mərcan bəy rolunu ifa edir. Bəstəkar bu əsərdə kütbeyin, avam, cahil insanların öz qazdıqları quyuya necə düşdüklərini göstərir. Əsərdə öz arvadını tanışına sırımaq istəyən ər və onun bütün kələklərini alt-üst edən qadın obrazı var. Operettanın məzmununu şərh edən Mirzə İbrahimov yazır: “Bu komediya.... həm məzmunu, ideyasının dərinliyi, ifşaçılıq qüvvəsi cəhətdən, həm də bədii keyfiyyətləri ilə klassik səviyyəyə qalxır. Burada da müəllif zəmanəsi üçün səciyyəvi olan mütərəqqi və mürtəce qüvvələr arasındakı mübarizəni dramatik konfliktin mərkəzinə qoymuşdur (Ü.Hacıbəyov, Seçilmiş əsərləri, 1985, səh.7).

1911-ci ildə bəstəkar növbəti operettası olan “O olmasın, bu olsun” və yaxud “Məşədi İbad” musiqili komediyasını yazır. Lakin 1916-cı ildə Üzeyir bəy əsərə hamam səhnəsini də əlavə edir. Bundan sonra 1918-ci ildə operetta dörd pərdədə çapa verilir.

1913-cü ildə bütün dünyaya səs salan “Arşın mal alan” əsəri yazılır. Bu əsər bəstəkara böyük şöhrət gətirir. Operetta demək olar ki, bütün dillərə çap edilib, böyük səhnələrdə səhnələşdirilib. 1945-ci ildə “Arşın mal alan” əsərinin filmi çəkilir.

Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinə gətirdiyi yenilikləri aşağıdakı kimi sıralamaq olar:

- Ü.Hacıbəyli ilk operanın banisidir;

- Ü.Hacıbəyli ilk operettanın banisidir;

- Ü.Hacıbəyli ilk musiqi dərsliyinin banisidir;

- Opera və operettanın inkişafı azərbaycanlı musiqiçi və müğənnilərin yolunu səhnədən salır;

- Ü.Hacıbəyli fəaliyyəti musiqinin inkişafı üçün geniş şərait yaradır;

- Ü.Hacıbəyli təkcə bəstəkar kimi deyil, eyni zamanda güclü tənqidçi kimi Azərbaycan tənqinin inkişafında rol oynamış şəxsiyyətdir.

- Ü.Hacıbəyli hələ dram əsərlərinin cəmiyyət tərəfindən qəbul edilmədiyi bir zamanda, daha da cəsarətli addım ataraq musiqili əsərlərin Azərbaycan səhnəsində səhnələşdirilməsinə nail oldu. Burada qeyd etmək lazımdır ki, musiqili tamaşalar təkcə cahil cəmiyyəti deyil, eyni zamanda dövrün ziyalı təbəqəsini də narahat etmişdi. Bu barədə 1917-ci il 27 oktyabr və 9 noyabr tarixlərində nəşr edilmiş “Kaspi” qəzetində də məlumat verilir.

## ÜZEYİR HACIBƏYLİNİN OPERALARI

### Müsəlman Şərqində ilk opera

1908-ci il yanvarın 12-də (yeni təqvimlə 25 yanvar) Bakıda, Hacı Zeynalabdin Tağıyevin teatrında (indiki Akademik Musiqili Teatrın binası) dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası səhnələşdirilib. Bununla Üzeyir bəy Azərbaycanda peşəkar bəstəkarlıq sənətinin təməlini qoydu. "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü – muğam operası meydana gəldi. Bu, müsəlman Şərqində ilk opera idi.

Opera dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyniadlı poemasına əsaslanır. Bəstəkarın fikrincə, Füzuli poemasının ruhu, lirikası məhz muğam kimi möhtəşəm bir musiqi ilə təcəssüm oluna bilər: "Mənim vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi...".

Ü.Hacıbəyli məqalələrindən birində "Leyli və Məcnun"un yaranma tarixindən bəhs edərək yazırdı ki, 1897-1898-ci illərdə, on üç yaşında olarkən, doğma şəhəri Şuşada "Məcnun Leylinin məzarı üstündə" adlı musiqili səhnəyə baxıb. Həmin səhnəni yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev Şuşanın tanınmış musiqiçilərinin köməyi ilə tamaşaya qoymuşdu. Məcnun rolunun ifaçısı Cabbar Qaryağdıoğlu idi. Üzeyir bəyin yazdığına görə, bu tamaşa onun yaddaşına həkk olunur. Qori Müəllimlər Seminariyasını bitirib Bakıya qayıdandan sonra o, məhz Füzulinin "Leyli və Məcnun"u əsasında opera yazmaq qərarına gəlir.

"Leyli və Məcnun" operasının ilk tamaşasına görkəmli aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermişdi. Dirijor yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev idi. Tamaşanın bədii tərtibatında publisist, mütəfəkkir, eyni zamanda istedadlı rəssam Əli bəy Hüseynzadənin rolu olmuşdu. İlk tamaşanı müşayiət edən orkestr Üzeyir bəyin seminariya yoldaşları olan həvəskar musiqiçilərdən ibarət idi. Muğam hissələrini ustad tarzənlər Qurban Pirimov və Şirin Axundov müşayiət edirdilər. Məcnun rolunun ilk ifaçısı tanınmış teatr və musiqi xadimi Hüseynqulu Sarabski idi.

Leyli rolunun ifaçısını tapmaq isə çox çətin idi. O dövrdə müsəlman qadınlarının səhnəyə çıxmasına yol verilmirdi, qadın rollarını kişilər ifa edirdi. İlk tamaşada Leyli rolunun ifası məlahətli səsə malik Fərəcov soyadlı bir gəncə tapşırıldı. Sonralar isə Leyli rolunda məşhur ifaçı Əhməd Ağdamski (Bədəlbəyli) çıxış etmişdi.

Bir əsrdən çoxdur "Leyli və Məcnun" operası səhnədədir. Bu dövr ərzində neçə-neçə müğənni və xanəndə Leyli və Məcnun rollarının gözəl ifaçıları kimi tanınıb. Məcnunlar, Leylilər nəsil-nəsil bir-birini əvəz edir. Əsər isə təravətini itirmir, Azərbaycan milli operasının inkişaf yolunu işıqlandırır...

# Leyli və Məcnun- Üzeyir Hacıbəyov tərəfindən yazılmış ilk milli Azərbaycan operası (1907)



Opera, Məhəmməd Füzuli tərəfindən XVI əsrdə yazılmış "Leyli və Məcnun" faciəsinin motivləri əsasında yazılmışdır. Bu opera təkcə ilk Azərbaycan operası olmayıb, həm də bütün İslam dünyasında ilk operadır.

"Leyli və Məcnun" operası müasir musiqi inkişaf etdirmə vasitələri və xalq incəsənətinin milli-orijinal xüsusiyyətlərinin sintezinin əsasını qoymuşdur. Zəngin folklor materialı (əsasən muğamlar və lirik mahnılar) əsasında qurulmuş bu opera, əsrlər boyunca toplanmış musiqi ənənələrinin beynəlxalq qəbul edilmiş musiqi incəsənəti formaları ilə ümumiləşdirilməsinə ilk cəhddir. Bu yolla da, not yazısı və solo vokal improvizasiyanı (muğam) birləşdirən muğam-opera janrı yaradılmışdır.

Operanın ilk səhnələşdirilməsi 12 (25) yanvar 1908-ci ildə Bakı şəhərindəki Tağıyev Teatrında baş tutmuşdur. Yaxın Şərq, Mərkəzi və Cənubi Asiyada məşhur olan klassik sevgi əfsanəsi əsasında yaradılmış bu əsər Azərbaycan mədəniyyətinin mirvarilərindən biri hesab edilir.

2008-ci ilin fevralında UNESCO Baş Konfransında ilk Azərbaycan operası olan "Leyli və Məcnun"un 100 illik yubileyinin UNESCO-nun xüsusi tarixlər siyahısına daxil edilməsi qərarı verilmişdir.



**"Məcnun səhrada" səhnəsində qızların xoru. Bakı, 1920-ci illər.**



**Döyüş sonrası səhnəsi. Bakı, 1930-cu illər. Rəss.: R. Mustafayev**

## Libretto

Opera, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması əsasında yazılmışdır. Füzuli isə öz növbəsində ilk dəfə XII əsrdə farsdilli poeziyanın klassiki Nizami Gəncəvi tərəfindən yazılı ədəbiyyata gətirilmiş qədim ərəb əfsanəsi "Leyli və Məcnun"un süjetindən faydalanmışdır. Sonradan bu mövzuya bir çox şərq şairləri, o cümlədən Əmir Xosrov Dəhləvi, Əlişir Nəvai, Cami və digərləri də müraciət etmişlər.

Hacıbəyovun məhz Füzuli poemasını seçməsinin əsas səbəbi, Füzulinin "Leyli və Məcnun"unun Azərbaycan dilində olması və poemanın ayrı-ayrı hissələrinin çoxdan xalq ifaçıları tərəfindən muğamların ifası zamanı istifadə olunması idi. Məhz bu, bəstəkara poemadan bir çox şairləri operaya daxil etməyə imkan vermişdir. Operanın ədəbi mətninə bəstəkar tərəfindən Füzulinin ayrı qəzəlləri, xalq mətnləri də əlavə edilmiş, bir sıra yerlərdə isə mətnlər bəstəkarın özü tərəfindən tamamlanmışdır.

Füzuli poeması və opera librettosu arasında əsas fərqlər bunlardır: poemanın bir sıra bölmələri – Məcnunun mənşəyi, Məkkə ziyarəti, Məcnunun Leyli məzarı üzərində fəryadı, Gənclərin ziyarəti kimi hissələr qısaldılmışdır. Poemanın iki hissəsi – Məcnunun elçiliyi və İbn Salamın elçiliyi operada bir-birinin ardınca verilir və ikinci pərdədə parlaq səhnə kontrastı yaradır. Lakin, poema və opera arasındakı əsas fərqlər Hacıbəyov tərəfindən edilmiş kiçik süjet motivləri və personajların obrazlarıdır. İlk növbədə bu, Leyli obrazı ilə əlaqəlidir. Belə hesab edilir ki, Leyli obrazında rəssam azadlıq sevən Azərbaycan qadınlarının obrazını canlandırmağa çalışmışdır. Füzulinin əsərində Leyli Məcnuna aşiq olmasını həyat yoldaşı İbn Salamdan gizlədərək, ona qarşı soyuq olmasını cin tərəfindən sevilməsi və cinin ona başqaların sevməyi qadağan etməsi ilə əlaqələndirir. Hacıbəyovun qəhrəmanı isə Məcnuna qarşı olan hisslərini açıq şəkildə İbn Salama etiraf edir.

Həm poemada, həm də operada qəhrəmanlar xoşbəxtlikləri uğrunda aktiv mübarizə aparmırlar. Musiqişünas Elmira Abbasova qeyd edir ki, onlar üçün mübarizədən (Məcnun Nofəlin xidmətindən və həyat yoldaşının ölümündən sonra Leyli ilə evlənməkdən imtina edir) daha çox ali sevgiyə sədaqət daha vacibdir. Poemanın fəlsəfi məzmunu məhz personajların bu xüsusiyyətində özünü büruzə verir.

## Şeyx Sənan — Üzeyir bəy Hacıbəylinin ikinci operası (1909)




5 pərdədən ibarətdir. Librettosunu eyniadlı xalq dastanının motivləri əsasında Üzeyir bəy Hacıbəyli özü yazmışdır. Müxtəlif dinlərə etiqad edən iki gəncin faciəli məhəbbətindən bəhs edir.

İlk dəfə 1909-cu il noyabrın 30-da (yeni təqvimlə dekabrın 13-də) Nikitin qardaşlarının sirkində tamaşaya qoyulmuşdur.

Tamaşanın rejissoru H. Şərifov, dirijoru Üzeyir bəy Hacıbəyli olmuşdur. Əsas partiyaları H. Sarabski (Şeyx Sənan), Leyla xanım (T. Boqatko; Xumar), H. Terequlov (Xumarın atası) ifa etmişlər. Lakin operanın səhnə taleyi uğursuz olmuş və o, bir daha oynanılmamışdır. İlk tamaşa ilə əlaqədar o dövr mətbuatında ("Səda", "Tərəqqi", "Həqiqət", "Kaspi", "Baku" qəzetləri və s.) dərc olunmuş yazılar bu uğursuzluğun səbəblərini qismən açıqlayır. Bu xalq dastanı haqqında rusdilli oxuculara hələ 1907-ci ildə ilk dəfə məlumat verən Mehdi bəy Hacınski "Şeyx Sənan" operasına tamaşa edəndən sonra "Avara" imzası ilə dərc etdirdiyi məqalədə yazmışdı: ..."Leyli və Məcnun" operası gənc bəstəkara yeni "Şeyx Sənan" operasını yaratmağa imkan verdi. Gənc bəstəkar dastanın "eşqin sərhəddi yoxdur" kimi əsas ideyasını saxlamaqla ona gözəl musiqi yazmışdır" ("Kaspi", 2 dekabr 1909, №270). "Şeyx Sinan"a tamaşa etmiş incəsənət xadimləri və jurnalistlərin rəylərində "operanın son dərəcə gözəl havası" ("Həqiqət", 26 may 1910, №118), musiqisinin "çox gözəl" ("Səda", 2 dekabr 1909, № 45) olması, burada "Gözəl nəğmələr" eşidilməsi ("Reklam" qəz., rusca) barədə tərifli fikirlər var. Məsələn, "mükəmməl musiqi ilə tərtib olunmuş" ("Səda", 25 oktyabr 1909, № 15) "Şeyx Sənan" operasının səhnə həyatı nə səbəbə uğursuz olmuşdur? İstər Üzeyir bəy Hacıbəylinin müasirləri, istərsə də tədqiqatçıları bunu operanın librettosunun zəifliyi ilə izah edirlər. Operanın librettosu, həqiqətən, zəif olub. Belə ki, tamaşa Üzeyir bəy Hacıbəylinin iki ildən bəri üzərində işlədiyi libretto əsasında oynanılmamışdır. Mənbələrdən aydın olur ki, Üzeyir bəy opera üzərində işləyərkən "Şeyx Sənan" dastanını nəzmə çəkməyi dərbəndli şair Mirzə Səməndərə sifariş etmişdi. Bunun bilavasitə şahidi olan H. Abbasov xatirələrində Mirzə Səməndəri Üzeyir bəyin tapşırığı ilə Bakıya dəvət etdiyini, onun üç ay burada qalıb dastanı nəzmə çəkdiyini və həmin şeirləri əlbəəl Üzeyir bəy Hacıbəyliyə təqdim etdiyini

göstərir (H. Abbasov. "Xatirələrim", Bakı: 1968, səh. 30). Lakin güman etmək olar ki, Mirzə Səməndər hansı səbəbdənsə, kiminsə təhrikilə ilk tamaşaya az qalmış şerləri Üzeyir bəy Hacıbəyli almış və librettodakı şerlərin yerini dar macalda şifahi xalq ədəbiyyatından seçdiyi parçalarla əvəz etmişdir. Müasirləri operanın səhnə həyatının uğursuzluğuna "musiqisinin Avropa tərzində olmasını, "yəhudi xoru"nun xoşagəlməyən oxumalarını, Leyla xanımın "müsəlman ləhnlərinə biganəliyi"ni və s. səbəblər də göstərirdilər. "İlk tamaşadan sonra Ü. Hacıbəyli özü "Şeyx Sənan" operasını məhv etmişdir" iddiası da əsassızdır. Üzeyir bəy 1911-ci ildə opera üzərində yenidən işlədiyi, təzə libretto yazacağı haqqında "Kaspi" qəzetində (8 may, 1911) məlumat vardır. "Şeyx Sənan" operasının musiqisi isə heç zaman məhv edilməmiş, bəstəkar bu musiqidən sonrakı əsərlərində istifadə etmişdir. "Şeyx Sənan" operasının ilk tamaşası barədə rəylərin, Üzeyir bəy Hacıbəyov başqa əsərlərinə yazılmış resenziyaların, "Nicat" cəmiyyətinin iclaslarındakı müzakirələrdə irəli sürülən mülahizələrin tədqiqi bu əsər haqqında natamam təsəvvürləri dəqiqləşdirməyə imkan verərdi.

---

## Rüstəm və Söhrab — Üzeyir bəy Hacıbəyovun üçüncü muğam operası (1910)




Firdovsinin "Şahnamə" poemasının motivləri əsasında **1910-cu ildə** yazılmışdır, 4 pərdəli bu operanın ədəbi mətni-əruz vəzni ilə yazılmış şer parçaları ilə zəngindir. Librettonun Üzeyir bəy tərəfindən yazılıb-yazılmaması haqda bir sıra fikirlər mövcud idi. Araşdırma nəticəsində librettonun müəllifliyi barədə mübahisələrə son qoyulmuş, oradakı bəzi şeir parçalarının isə şair-qəzəlxan Buzovnalı Azərə məxsusluğu müəyyən edilmişdir. Bu operada müəllif muğam səhnələrini azaltmış, musiqinin çox hissəsini özü bəstələmişdir. Operanın ilk tamaşası 1910 il noyabrın 25-də Bakıda Tağıyev teatrında olmuşdur.

Rejissor - ***Hüseynqulu Sarabski,***
Rejissor köməkçisi - ***X.Hüseynov***
Bəstəkar – ***Ü. Hacıbəyli***
Librettonun müəllifi - ***Ü. Hacıbəyli***
Dirijor - ***Ü.Hacıbəyli***
Əsas rollarda:
***H. Sarabski - Söhrab,***
***Əhməd Ağdamski - Təhminə,***
***Hənəfi Terequlov - Keykavus***
***M.M.Məmmədov - Səmənqan və b. çıxış etmişlər.***

Mətbuatda yazıldığına görə, tamaşa müvəffəqiyyət qazanmamışdır. Ona görə də H. operanı səhnədən götürməyə məcbur olmuşdur.

Əsər bir qədər işlənildikdən sonra ikinci dəfə 6 mart 1915-ci ildə dirijor-bəstəkar M. Maqomayevin benefisində, H. Z. Tağıyevin teatrında tamaşaya qoyulmuşdur.

---

# Şah Abbas və Xurşid Banu — Üzeyir bəy Hacıbəyovun dördüncü muğam operası (1911)



Librettosu da Üzeyir bəy Hacıbəyovundur. Azərbaycan xalq nağılının motivləri əsasında yazılmışdır. 4 pərdəli, 6 şəkillidir.

Opera ilk dəfə 1912 il martın 10-da (23-də) Nikitin qardaşlarının sirkində tamaşaya qoyulmuşdur. Tamaşanın rejissoru H. Ərəblinski, dirijoru M. Maqomayev idi. Rollarda H. Sarabski (Şah Abbas), Ə. Ağdamski (Xurşid Banu), H. Terequlov (Məstavər) və b. çıxış etmişlər. Opera Azərbaycan səhnəsində 30-cu illərədək tamaşaya qoyulurdu.

***Özəllikləri:***

Əvvəlki operalarından fərqli olaraq xoşbəxt sonluqla bitən bu əsərin qəhrəmanı mənsəbpərəst və şöhrətpərəst şaha qalib gəlmiş sadə odunçu qızıdır. Əsərdə xeyir şərə qalib gəlir, ülvi məhəbbət zəfər çalır. Hacıbəyovun əvvəlki əsərlərindəki kimi, burada da muğamlardan geniş istifadə olunur. Lakin əsərdə müəllif materialı xeyli artırılmışdır ki, bu da müəllifin yaradıcılıq inkişafına dəlalət edir. Hacıbəyov qəhrəmanların fərdi xüsusiyyətlərini əks etdirən musiqi yarada bilmişdir. ***Operada ən böyük uğur Şah Abbasın partiyasıdır***. Muğam operalarında ilk dəfə olaraq ənənəvi-klassik tipli ariya səslənir (birinci pərdədə).

Lakin bununla belə bu ariyada milli lad-intonasiyası da aydın hiss olunur. Ariya dramaturji cəhətdən də çox maraqlıdır. Burada Şah Abbas obrazı hərtərəfli təsvir olunur, onun həm xəyalpərəst, şairanə, dərin hisslərlə yaşayan bir şəxs, həm də hökmran, qətiyyətli bir şah olması açıqlanır. Ariyanın iki planlı məzmunu bir tərəfdən lirik, yumşaq, digər tərəfdən isə marşabənzər ruhda olub, Heyratı zərbi muğamını xatırladır. Şah Abbasın bu ariyası sonralar M. Maqomayevin "Şah İsmayıl" operasındakı Aslan şahın ariyasının yaranması üçün zəmin yaratdı. Bu ariya Hacıbəyovun gələcək opera üslubu üçün çox mühüm əhəmiyyət kəsb edirdi. Operada Xurşid Banunun birinci pərdədəki ariyası, Məstavərin partiyası da müəllif musiqisi ilə ifadə olunur. Hacıbəyov üçün ənənəvi olan musiqi tərzi və yeni musiqi ifadələri bəstəkarın əvvəllər istifadə etdiyi musiqi vasitələrini xeyli genişləndirdi, operanın böyük müvəffəqiyyətinə səbəb oldu.

## Əsli və Kərəm — Üzeyir bəy Hacıbəyovun beşinci muğam operası (1912)



Opera ilk tamaşasından böyük müvəffəqiyyət qazanaraq uzun və maraqlı səhnə ömrü olan əsərlər sırasına daxil olmuşdur. "Əsli və Kərəm"-in ilk tamaşası 1912-il mayın 18-də indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında olmuşdur. Tamaşanın rejissoru Hüseyn Ərəblinski, dirijoru isə Üzeyir Hacıbəyovun özü idi. Rollarda olan şəxslər Hüseynqulu Sarabski (Kərəm), Əhməd Ağdamski (Əsli), Hənəfi Terequlov (Qara keşiş), Mirzə Muxtar Məmmədov (İsfahan şahı), Q. Göyçaylinski (Şeyx Nurani) və başqaları çıxış etmişlər. Opera Qafqaz, Orta Asiya və İranın bir çox şəhərlərində də göstərilmişdir. "Əsli və Kərəm" AOBT-ndan başqa, respublikanın digər teatrlarında (Ağdam, Naxçıvan və s.) da tamaşaya qoyulmuşdur. AOBT-nda "Əsli və Kərəm" 1957-ci ildən bəstəkar Nazim Əliverdibəyovun orkestra redaksiyası ilə ifa olunurdu. 1988-ci ildən opera bu teatrın səhnəsində yeni quruluşda oynanılmışdır.

***Məzmun***

Qafqazda geniş yayılmış eyni adlı Azərbaycan xalq dastanının motivləri üzrə yazılmışdır. Operada fədakar məhəbbətin gücü, insanın mənəvi gözəlliyi tərənnüm edilir; əsərdə dini dairələrin təbliğ etdiyi feodal münasibətləri və millətçilik ideyalarına qarşı etiraz ifadə olunmuşdur. Əsas qəhrəmanların—Kərəm və Əslinin obrazlarının açılmasında Hacıbəyov, əsasən, muğamlardan istifadə etmişdir.

***Özəllikləri***

Məsələn, qəhrəmanların qarşılıqlı məhəbbətini göstərən, dialoq şəklində qurulmuş ilk geniş səhnə-ekspozisiya Bayatı-Şiraz və Şikəsteyi-fars muğamlarının melodiyasına əsaslanır. Həmin səhnədə səslənən Qarabağ şikəstəsi zərbi muğamı böyük və saf məhəbbəti tərənnüm edir. Bu zərbi-muğam bir daha IV pərdədə — qəhrəmanların uzun ayrılıqdan sonra görüşdükləri səhnədə səslənir. Şeyx Nuraninin partiyası humayun muğamı ilə verilmişdir. Azərbaycan musiqiçilərinin az-az ifa etdikləri bu muğam qəhrəmanın bir qədər qeyri-adi, əfsanəvi mahiyyətini açıb göstərir. Şahın obrazı üçün Hacıbəyov Rast muğamından istifadə etmişdir.

Hacıbəyov muğam operalarından ilk dəfə "Əsli və Kərəm"-ə leytxarakteristika gətirmişdir. Bu, Kərəmin obrazını daha dolğun yaratmaq üçün Hacıbəyovun istifadə etdiyi "Kərəmi" aşıq melodiyasıdır. "Kərəmi" operada dəfələrlə səslənərək qəhrəmanın dərin iztirablarını ifadə edir. Zərbi muğam növü olan "Kərəmi"nin vokal partiyası improvizasiya ilə oxunduğundan hər dəfəki təkrarında müğənniyə bu havanı yeni obrazlı-emosiya çaları ilə zənginləşdirmək imkanı verir və bununla da obrazın daha dinamik açılışına və bütövlüyünə kömək edir.

Hacıbəyovun özünün nota salıb işlədiyi "Kərəmi" havasının instrumental təkrarları — refreni operanın bütün pərdələrində orkestrdə səslənir. Uvertüranın əsas mövzusu olan bu refren qəhrəmanın obrazı ilə, eləcə də onunla bağlı səhnə hadisələrilə bilavasitə əlaqə yaradır. Refren musiqisinə xas marşvarı cizgilərlə müəllif şahzadə Kərəmin daim səyahətdə olduğunu qeyd edir. Muğam operası olan "Əsli və Kərəm"-də əsl aşıq havasından istifadə etməklə Hacıbəyov əsərə janr mənasında orijinallıq gətirmiş, dastan əlamətləri vermişdir. "Əsli və Kərəm"-i muğam-dastan operası adlandırmaq olar. Operada bəstəkarın özünün yazdığı xeyli musiqi nömrələri vardır. Öz qızının xoşbəxtliyinə manələr törədən Qara keşişin partiyası belə musiqi nömrələrindəndir.

Hacıbəyov keşişin qəzəbini, qəddarlığını sadə ifadə vasitələri (deklamasiyalılıq, reçitativ xüsusiyyətləri, kəskin ritm, geniş intervallı intonasiyalar) ilə verə bilmişdir. Keşişin partiyasını bir çox cəhətdən "Koroğlu" operasındakı Həsən xanın partiyasına hazırlıq hesab etmək olar.

Operanın digər parçalarından II pərdənin bir və ikinci şəkillərinin antraktları, IV pərdədəki rəqs, bir sıra xorlar H.-un özünün bəstələdiyi musiqi əsasındadır. Xalq mahnı intonasiyaları ilə aşılanmış bu musiqi nömrələri çox gözəl və ifadəlidir. Operada məişət səhnələrinin təsviri, qəhrəmanların psixoloji vəziyyətinin açılışına kömək edən xor səhnələri mühüm dramaturji məna kəsb edir. IV pərdədəki "Axşam oldu" qızlar xoru bu mənada xüsusilə əhəmiyyətlidir. Çox kədərli, incə, təsirli musiqisi olan bu xor qəhrəmanların faciəli ölümü haqqında qabaqcadan xəbər verərək hüznlü əhvali-ruhiyyə yaradır. Hacıbəyovun əvvəlki operalarından fərqli olaraq "Əsli və Kərəm"-də danışıq epizodları mövcuddur; bu epizodlar gələcək Azərbaycan operalarında reçitativ səhnələri üçün hazırlıq hesab oluna bilər. Bu opera Hacıbəyovun fəal bədii axtarışlarının bariz nümunəsi olaraq onun yaradıcılığında mühüm mərhələ təşkil edir.

---

## Harun və Leyla — Üzeyir bəy Hacıbəylinin altıncı, sonuncu muğam operası (1915)

1915-ci ildə bəstələnmiş, lakin tamaşaya qoyulmamışdır. Librettosunu eyniadlı ərəb dastanının motivləri əsasında Üzeyir bəy Hacıbəyli özü yazmışdır.

5 pərdəli idi. Beş pərdəli operanın klaviri tamamlanmış, fəqət premyera günü ərəfəsində deyilənə görə guya məhv edilmişdi. Görünür, operanın musiqisi müəllifi qane etməmiş və o, həmin əsəri "musiqili pyes" adlandırmışdır. Artıq bu vaxt muğam operasının imkanlarının tükəndiyi fikrinə gələn bəstəkar "Harun və Leyla"dan sonra muğam operası yazmamışdır.

---

## Koroğlu (opera) 1936



"Koroğlu" — Azərbaycanın böyük bəstəkarı Üzeyir bəy tərəfindən bəstələnmiş beş pərdəlik operadır.

Əsərin librettosu Heydər İsmayılov və Məmməd Səid Ordubadi tərəfindən yazılmışdır. Azərbaycanın əfsanələrindən biri olan Koroğlu dastanı, çox məşhurdur. Bu opera Hacıbəyovun yaradıcılığının zirvəsini təşkil edir. Azərbaycan opera sənətinin incilərindən sayılan bu operada Üzeyir bəy ilk dəfə olaraq klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər yaratmışdır. "Koroğlu" operası ilk dəfə 1937-ci il aprelin 30-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulub.

**Tarixçə**

Bəstəkarın yaradıcılığında kulminasiya mərhələsi olan "Koroğlu" dünya klassik operaları sırasında parlaq nümunələrdən biridir. 5 pərdəli bu operanın libretto müəllifləri H. İsmayılov və M. S. Ordubadidir. Librettonun yaradılmasında Hacıbəyov fəal iştirak etmişdir. Üzeyir Hacıbəyov opera üzərində 1932–1936-cı illərdə işləmiş, ilk tamaşa 1937-ci il aprelin 30-da AOBT-nda olmuşdur. Azərbaycanda, ümumiyyətlə Zaqafqaziyada, Orta Asiya, Türkiyə və İranda geniş yayılmış "Koroğlu" xalq dastanı operanın süjet əsasını təşkil edir. Operanın musiqisində Azərbaycan xalqının tarixi taleyi, xarakteri, psixologiyası, bütövlükdə dünyagörüşü əksini tapmışdır. "Koroğlu" tipik xalq qəhrəmanlıq dastanıdır. "Koroğlu"da opera sənətinə xas bütün əlamətlər bəstəkarın milli musiqi təfəkkürü süzgəcindən keçərək kamillik səviyyəsində yaradılmışdır.

"Koroğlu" operasına görə Üzeyir Hacıbəyov 1941 ildə Stalin mükafatına layiq görülmüşdür. "Koroğlu"-nun ilk tamaşasının rej. İ. Hidayətzadə, dirijoru H., (sonralar Ə. Həsənov), rəssamı R. Mustafayev olmuşdur. Rollarda Bülbül (Koroğlu), G. İsgəndərova (Nigar), M. Bağırov (Həsən xan), Q. İsgəndərov (təlxək), Ə. Zülalov (Ehsan paşa), Q. Hüseynov (Həmzə bəy), B. Mustafayev (İbrahim xan) çıxış etmişlər. 1938-ci ildə opera Moskvada Azərbaycan incəsənəti dekadasında böyük müvəffəqiyyət qazanmışdır. AOBT-nda "Koroğlu"-nun 1943 (rus dilində; dirijor Niyazi), 1959 (rej. M. Məmmədov, dirijor Niyazi, rəssam Ə. Fətəliyev), 1975 ildə (rej. F. Səfərov, dirijor R. Abdullayev, rəssam T. Salahov) yeni quruluşları hazırlanmışdır. "Koroğlu" Aşqabad (1939, türkmən dilində), İrəvan (1942, erməni dilində) və Daşkənddə (1950, özbək dilində) tamaşaya qoyulmuşdur. AOBT-nın qastrol tamaşaları zamanı "Koroğlu" Təbriz, Tiflis, Kiyev, Peterburq və s. şəhərlərdə göstərilmişdir. "Koroğlu"nun 1952, 1970-ci illərdə klaviri və partiturası nəşr olunmuş, opera vala yazılmışdır.

## Firuzə — Üzeyir bəy Hacıbəyovun yarımçıq qalmış operası

**Tarixçə**

1945-ci ildə yaradılırdı. Librettosu Ü. Hacıbəyli tərəfindən xalq rəvayətləri əsasında yazılmışdır. İlkin adı "Şəhrəbanu" idi. Bəstələnmiş musiqi parçaları arasında Firuzənin ariyası xüsusilə diqqətəlayiqdir. Onun musiqisi həzinliyi, şairanəliyi ilə fərqlənir. Bu ariya melodiyasının ifadəliliyi və oxunaqlığına görə bəstəkarın yazdığı ən gözəl opera ariyalarından biridir. Operanın librettosu Hacıbəyovun "Seçilmiş əsərləri"nin I cildində (B., 1964) çap olunmuşdur. Firuzənin ariyası Moskvada (Y. Fidlerin tərcüməsi ilə — 1949; P. Pançenkonun tərcüməsi ilə — 1956) və Bakıda (Ü. Hacıbəyov. "Seçilmiş ariyalar, romanslar və mahnılar" toplusu. Tərtibçi və redaktor Ə. Abbasov. B., 1975) nəşr edilmişdir.